# Qobustanın dünya şöhrətli tədqiqatçısı

**İnsanlığın keçdiyi inkişaf tarixinə nəzər salmaq, onun ayrı-ayrı mərhələlərinə səyahət etmək olduqca mənalı, maraqlı və ibrətamizdir. Çünki bu inkişaf yollarında hər bir insanın keçdiyi mənalı həyat yollarının ayrı-ayrı səhifələri öz əksini tapmışdır. Müasir zəmanəmizdə ayrı-ayrı insanların, xüsusilə alimlərin keçdiyi mənalı həyat yolunu öyrənmək və təbliğ etməyin olduqca mühüm əxlaqi, mənəvi və ictimai əhəmiyyəti vardır. Xüsusilə inkişaf etməkdə olan gənc nəsil üçün əməkdar elm xadimi, dünya şöhrətli alim İshaq Məmmədrza oğlu Cəfərzadənin keçdiyi mənalı həyat və elm yolu örnək olmalıdır.**



İshaq Cəfərzadə 1895-ci il avqustun 14-də böyük Nizami Gəncəvinin vətəni olan Gəncədə dünyaya gəlmişdir. İshaq müəllimin atası Məmmədrza kişi sənətkar olmuş və Gəncə şəhərində ən yaxşı sərrac kimi tanınmışdır. İshaq müəllim 6 yaşına çatanda atası onu mədrəsəyə oxumağa qoymuşdu. Mədrəsədə o, ərəb, fars dillərini öyrənmiş və dahi Nizaminin əsərlərini oxuyaraq ilham almışdır. Mədrəsədən sonra 1910-1916-cı illərdə 6 illik şəhər məktəbində təhsil almış, bu məktəbdə oxuyarkən rus dilini öyrənməyə başlamışdır. Məktəb illərində geniş bilik əldə etməyə can atmış və bununla bütün məktəb müəllimlərinin rəğbətini qazanmışdır. Məktəbdə təhsil aldığı vaxtlarda o, atasının yanında işləmiş və sərraclıq kimi qədim xalq sənətinin sirlərini dərindən öyrənməyə başlamışdır.

Azərbaycanın üst paleolit, mezolit, neolit, eneolit, tunc dövrlərinin və qədim qayaüstü rəsmlərin xarakterik xüsusiyyətlərinin tədqiqində Qobustanın müstəsna elmi əhəmiyyəti vardır. Qobustan elm aləminə ilk dəfə olaraq 1939-cu ildə məlum olmuşdur. 1940-1971-ci illərdə Qobustan ərazisində Azərbaycanın görkəmli arxeoloqu İshaq Cəfərzadə kəşfiyyat və tədqiqat işləri apararaq Qobustanın Böyükdaş, Kiçikdaş, Cingirdağ ərazilərində apardığı tədqiqatlar zamanı 700-dən artıq qaya daşları üzərində 3500-ə qədər qayaüstü təsvir qeydə alaraq tədqiq etmişdir.

1965-ci ildən başlayaraq Qobustan abidələrinin arxeoloji tədqiqi İshaq müəllimlə birlikdə Cəfərqulu Rüstəmov və Firuzə Muradova tərəfindən aparılmağa başlanmışdır. 1966-cı ildə "Qobustan Dövlət Tarixi Bədii Qoruğu" yaradılmışdır. Keçən 53 il ərzində Qobustan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı buradan 20-dən artıq qayaaltı sığınacaq, kiçik mağaralar, yaşayış yerləri, çoxlu sayda kurqanlar və 300-ə qədər daş üzərində qayaüstü rəsmlər aşkar edilərək tədqiq olunmuşdur.

Aparılan paleogeoloji, arxeoloji, paleontoloji tədqiqatlar əsasında müəyyən edilmişdir ki, Qobustanın müasir relyefi 20-25 min il bundan əvvəl formalaşmışdır. Bundan bir neçə müddət keçdikdən sonra qədim insanlar Qobustanda gözəl təbii-coğrafi şərait olduğuna görə burada məskunlaşaraq özlərinin həyat tərzini keçirməyə başlamışlar. 1965-1993-cü illərdə aparılan tədqiqatlar zamanı Qobustan ərazisindən üst paleolit, mezolit, neolit, eneolit, tunc, dəmir və antik dövrlərə aid zəngin maddi mədəniyyət qalıqları tapılmışdır.

Qobustanın Böyükdaş dağında "Ovçular zağası", IV daşaltı sığınacaq, "Ana zağa", "Kənizə", "Öküzlər", "Öküzlər-2", "Maral", "Daşaltı", "Böyükdaş", "Dairə", Kiçikdaş dağında "Ceyran", "Firuz", "Firuz-2", "Qayaarası", "Qayaarası-2", Şonqar ərazisində "Şonqar", "Daşaltı" sığınacaqlarında, Yazılıtəpədə orta əsr məbəd yeri və 40-dan çox kurqan tipli və iki daş dövrü qəbir abidəsi qazıntılarla tədqiq olunmuşdur.

Azərbaycan alimlərinin Qobustanda apardıqları elmi tədqiqatlar zamanı ilk dəfə olaraq müəyyən edilmişdir ki, bu ərazidə qədim insanların məskunlaşmağa başlamaları üst paleolit mədəniyyətindən başlanır. Bu baxımdan Qobustanın Kiçikdaş ərazisində yerləşən "Qayaarası" düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı tapılmış daş məmulatı içərisindən üst paleolitə aid əmək alətlərinin qeydə alınması xüsusi əhəmiyyət kəsb edir (Cəfərov, 2008).

C.Rüstəmov və F.Muradova 1981, 1982, 1984 və 1986-cı illərdə Qobustanın Kiçikdaş ərazisində yerləşən "Qayaarası" düşərgəsində arxeoloji qazıntı işləri aparmış və zəngin maddi mədəniyyət qalıqları aşkar etmişlər. "Qayaarası" düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı burada çöküntünün 3 m-ə yaxın olması müəyyən edilmişdir. Düşərgədə aparılmış arxeoloji qazıntılar zamanı daş dövrünün ayrı-ayrı inkişaf mərhələlərinə aid alətlər qeydə alınmışdır. "Qayaarası" düşərgəsinin ən aşağı təbəqəsinin daş məmulatı içərisində üst paleolitə aid alətlər müəyyən edilmişdir.

Qobustan dünya elm aləminə 1939-cu ildə məlum olsa da II Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq burada tədqiqat aparmaq mümkün olmamışdır. 1947-ci ildən başlayaraq İshaq Cəfərzadənin rəhbərliyi altında arxeoloji tədqiqatlara başlanılmışdır. Qobustan ərazisində İshaq Cəfərzadənin rəhbərliyi altında aparılan tədqiqatlar zamanı 700-dən artıq daş üzərində 5000-dən artıq müxtəlif məzmunlu qayaüstü rəsmlər qeydə alınmışdır. Qobustan rəsmlərinin qeydə alınması, kağızlar üzərinə köçürülməsi İshaq müəllimin həyat yoldaşı, onun ən yaxın elmi köməkçisi Səfiyyə xanım tərəfindən həyata keçirilmişdir. İshaq müəllim Qobustanın qayaüstü təsvirlərini 30 ildən artıq tədqiq etmiş və böyük zəhmətin nəticəsində onların sirlərini öyrənə bilmişdir. Məhz buna görə də İshaq müəllimin qayaüstü rəsmlər üzərində iş təcrübəsi nəinki yerli, hətta xarici alimlər üçün gözəl bir məktəb olmuşdur. Qədim qayaüstü təsvirlər dünyanın müxtəlif yerlərindən qeydə alınmışdır. Lakin hər yerdə Qobustan təsvirləri qədər geniş xronoloji çərçivəli, mövzu cəhətdən rəngarəng, orijinal süjetli və bədii dəyərli təsvirlərə təsadüf olunmamışdır. İshaq müəllim Qobustan təsvirlərinin ən qədim nümunələrini orta daş dövrünə, yəni mezolit dövrünə aid etmiş və onların 12-10 min il bundan əvvəllər çəkildiyini elmi cəhətdən sübuta yetirmişdir. İshaq müəllimin apardığı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, mezolitdən sonrakı dövrlərdə Qobustanın daş salnaməsində təsvirlərin sayı daha da artmış və zənginləşmişdir. Neolit, eneolit, tunc və dəmir dövrlərində Qobustanın daş salnaməsinə təsərrüfat sahələrinin genişlənməsi, inkişafı, dini təsəvvürlərin mürəkkəbləşməsi ilə əlaqədar daha geniş məzmunlu və kompozisiyalı lövhələr - əsl incəsənət əsərləri əlavə olunmuşdur. Ciddi axtarışlar nəticəsində İshaq müəllimə hər bir rəsmin dövrlərə görə mənasını açmaq, onların işlənmə üsulunu aydınlaşdırmaq müəssər olmuşdur. Dünyanın müxtəlif ərazilərindən tapılmış qədim qayaüstü təsvirlərə yaxşı bələd olan İshaq müəllim Qobustan təsvirlərinin səciyyəvi xüsusiyyətlərini, bədii və tarixi əhəmiyyətini müəyyənləşdirə bilmişdir. Görkəmli alimin tədqiqatlarında diqqəti cəlb edən cəhətlərdən biri də Qobustanın təbii-coğrafi şəraitinin nəzəri bərpası ilə bağlıdır. İshaq müəllimin müəyyənləşdirdiyinə görə keçmiş zamanlarda Qobustanın iqlimi rütubətli və tropik iqlimə yaxın olmuşdur. Həmin zamanlarda bu ərazi sulu çaylara, çoxlu bulaqlara və bol ot örtüyünə malik olduğundan burada saysız-hesabsız ov heyvanları özlərinə sığınacaq tapmış və yerli qəbilə və tayfaların böyük mal-qara sürüləri saxlamasına zəmin yaratmışdır.

1973-cü ildə İshaq müəllimin "Qobustanın qayaüstü təsvirləri" adlı monoqrafiyası çapdan çıxmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyatı tərəfindən irihəcmli albom şəklində çap olunmuş bu kitab Qobustan tədqiqatlarının ilk yekunlarına həsr olunsa da mühüm elmi əhəmiyyət kəsb edir. Ulularımızın qiymətli mirası, zəngin mədəni irsimizin ayrılmaz hissəsi olan Qobustan haqqında çoxlu şeirlər yazılmış, mahnılar bəstələnmiş və rəsm əsərləri çəkilmişdir. Lakin İshaq müəllimin "Qobustan" kitabına qədər bu qeyri-adi abidə haqqında müəyyən bir elmi əsər yazılmamışdı. Buna görə də bu kitab respublikamızın mədəni həyatında mühüm bir hadisə kimi qiymətləndirilmiş və elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdı.

Əməkdar elm xadimi, "Qırmızı əmək bayrağı" ordenli, tarix elmləri namizədi İshaq Cəfərzadə Azərbaycanın həm görkəmli arxeoloqu və həm də etnoqrafı idi. Onun Qobustandan əlavə apardığı tədqiqat işləri nəticəsində respublikamızın ərazisində arxeologiyanın müxtəlif dövrlərinə aid abidələr qeydə alınaraq tədqiq edilmişdir. İshaq müəllimin qədim Gəncə şəhəri ərazisində apardığı tədqiqatların xüsusi əhəmiyyəti vardır. Maraqlıdır ki, İshaq müəllim Gəncə ətrafında Nizami dövründən daha qədimə - tunc dövrünə aid çoxlu abidələr aşkara çıxarmış və xalqımızın mədəni nailiyyətlərinin dərin köklərini müəyyənləşdirmişdi. Qədim Gəncə şəhəri ərazisində apardığı arxeoloji qazıntılar zamanı İshaq Cəfərzadəyə böyük Nizaminin qəbrini açmaq şərəfi nəsib olmuşdur. Yubiley günlərində böyük mütəfəkkirin cənazəsinin qalıqları ölməz "Sənsiz"in ecazkar sədaları altında şairin şərəfinə yeni ucaldılmış türbədə qara mərmər sənduqəyə qoyulmuşdu. İndi bu yer xalqımızın ziyarətgahına çevrilmişdir. Qədim Gəncədə apardığı arxeoloji qazıntılar zamanı İshaq müəllim tapdığı maddi mədəniyyət qalıqları əsasında "Qədim Gəncənin tarixi-arxeoloji oçerki" adlı elmi əsər yazmışdır. Məhz bu mövzu əsasında İshaq müəllim hələ 1944-cü ildə müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi almışdır. İshaq müəllim müharibə illəri və sonrakı illərdə Bakı limanında yerləşən Şəhri Səbayıldа və Yaloylutəpədə başlanan arxeoloji qazıntılara rəhbərlik etmişdi.

İshaq Cəfərzadə 1941-ci ildə Cəlilabad rayonu ərazisində Uzuntəpə adlanan yerdə aşkara çıxarılmış maddi mədəniyyət nümunələri - saxsı qablar, tuncdan və dəmirdən hazırlanmış silahlar, müxtəlif materiallardan hazırlanmış bəzək əşyaları və s. tapıntılar alim tərəfindən araşdırılmış və bu tapıntıların nəticəsi olaraq 1946-cı ildə İshaq müəllim çap etdirdiyi məqalədə Muğan arxeoloji mədəniyyətinin mövcudluğunu kəşf etmişdir. İshaq müəllimin Yaloylutəpədə apardığı qazıntıların da mühüm elmi əhəmiyyəti olmuşdur. Bu arxeoloji qazıntılar zamanı respublikamızın ərazisində qədim və özünəməxsus bir arxeoloji mədəniyyətin mövcudluğu müəyyən edilmişdir.

İshaq Cəfərzadənin 30 ildən artıq müddətdə respublikamızın ərazisində apardığı arxeoloji tədqiqatlar zamanı zəngin maddi mədəniyyət qalıqları tapılmış və ayrı-ayrı arxeoloji mədəniyyətlər müəyyən olunmuşdur.

1999-cu ildə "Dədə Qorqud" dastanlarının 1300 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlər çərçivəsində İshaq müəllimin "Qobustanın qayaüstü təsvirləri" adlı kitabı yenidən Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Alimin apardığı tədqiqatlar nəticəsində Azərbaycanın qədim tarixinin öyrənilməsində müstəsna elmi əhəmiyyətə malik Qobustan abidələri bütün dünyada yüksək qiymətləndirilmiş və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü nəticəsində 2007-ci ildə Qobustan abidələri kompleksi UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısına daxil edilmişdir.

Dünya şöhrətli alim 1982-ci ildə vəfat etmişdir.

İshaq müəlliminin uzun illər ərzində apardığı elmi tədqiqatlar zamanı əldə etdiyi nailiyyətlər Azərbaycanın arxeoloji mədəniyyətlərinin öyrənilməsində mühüm nailiyyətdir. Bu gün gənclərimiz və arxeoloqlarımız Azərbaycanın üst paleolitdən başlayaraq son orta əsrlərə qədər olan dövrlərini İshaq müəllimin əsərləri əsasında tədqiq edirlər.

**Əsədulla CƏFƏROV**
**AMEA Arxeologiya və Antropologiya İnstitutu, Daş dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor**